# Buynuzlu şairimiz

## Savaba görə cəhənnəm çəkən bəlkə də yeganə müsəlman- Musa Yaqubun 80 yaşı qeyd edilir

Müasir ədəbiyyatımızın nəhənglərindən biri, şeirləri ilə poeziyamıza dağ vüqarı, qar təmizliyi, bulaq saflığı, çiçək ətri gətirən Musa Yaqubun 80 yaşı tamam olur.

***Dünyaya gəlmədim hayla-harayla,***
***Bir sakit guşədə***
***bir döşdəyəm mən.***
***Gündüzlər günəşlə,***
***gecələr ayla,***
***Səhərlər quşlarla***
***görüşdəyəm mən.***

İsmayıllı rayonunun Buynuz kəndində anadan elə şair kimi doğulan böyük sənətkarımızın yubiley təntənəsinə Bakıda start verildi. Musa Yaqubun paytaxtdakı oxucularının, dost və tanışlarının bir qismi Abbas Mirzə Şərifzadə adına Aktyor Evində şairi alqışa, tərifə, gül-çiçək dəstələrinə qonaq elədilər. Musa Yaqub da onlara borclu qalmadı, 80 illiyi ilə əlaqədar yeni işıq üzü görən iki kitabını gələn bütün qonaqlarına təmənnasız bağışladı.

Yubiley gecəsinin aparıcısı şair Əjdər Ol Musa Yaqubu özünü qiymətli tutan bir qələm adamı kimi xarakterizə elədi və dedi ki, insanlar Musa Yaqubu təmənna güdmədən, göstəriş olmadan sevirlər.

Qonaqlar arasından ilk çıxış edən isə Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar oldu. Anar müəllim Musa Yaqubun Buynuzdakı ocağına ilk dəfə getdiyi günü xatırlatdı: "Musa kimi şair məhz belə bir kənddə doğula bilərdi. Onun haqqında yazdığım məqalələrdə də qeyd etmişəm ki, Musa Yaqub zərif ruhlu şairdir, Musanın poziyasında təbiətlə cəmiyyət vəhdətdədir. Musa, o qədər yaşa ki, bu dünyanın qara daşı göyərsin".

***Araz boyu çox mənalar sezmişəm,***
***Elə bilmə əllərimi üzmüşəm.***
***Ürəyimə daş bağlayıb dözmüşəm,***
***Bu dünyanın qara daşı göyərməz.***

Xalq şairi Nəriman Həsənzadə yubilyarı bal arısına bənzətdi, ədəbiyyatımızın, şeirimizin üzünü İsmayıllıya, Buynuza tərəf çevirməyi bacardığını dedi, dünyadan köçmüş dostlarını xatırladı: "Musa, bu gün sənin yanında gərək Məmməd Araz, Söhrab Tahir oturaydı..."

***Nə gözəldir, yarına***
***Şah yalvarışı...***
***Şükür, Tanrım, şükür sənə,***
***Bir qılıncı qələm edib***
***Öldürürsən bu qəzəbi,***
***Bir döyüşü, bir savaşı.***
***Köhnə yaram qövr elədi,***
***Bir də gördüm***
***Xətainin qılıncıdı,***



**Diasporla bağlı tədbirdə Musa Yaqubla birlikdə iştirak edirik. 05 oktyabr 2002-ci il Soçi şəhəri**

***dövr elədi.***
***Gəlib oldu***
***Məmməd Araz karandaşı***
***Göyərdi...***

Şair Vaqif Bəhmənli 40 öncə yubilyarla Zaqataladakı ilk görüşünü xatırladı: "Həmin toplantıda Musa Yaqubun öz dilindən eşitdiyim şeirin sehrinə düşdüm. Mənim də daxil olduğum ədəbi nəsl bu gün də Musa Yaqubdan öyrənir".

Vaqif Bəhmənli səbəbkara həsr etdiyi şeiri də oxudu. Lakin biz bu yazıdakı ənənəni pozmayıb Musa Yaqubun yaradıcılığından sitat gətiririk:

***Bu atəş içində, silah içində,***
***Bu tamah, bu günah, bu ah içində,***
***Heç cürə yaşamaq olmur Allahım.***
***Neçin mənim ömrüm bu vaxta düşdü...***
***Aprel günümüzə qar, şaxta düşdü.***
***Ya yetir dünyanı axır zamana,***
***Ya da at ömrümü bir az o yana...***

Xalq şairi Sabir Rüstəmxanlı isə Musa Yaqubu şeirimizin Babadağı adlandırdı: "Əziz dostumun az qala hər beş ildən bir keçirilən yubileylərində iştirak etmişəm, yaradıcılığı barədə məqalələr yazmışam. Onun şeiri siyasət çirkabına bulaşmayan, vətəndaşlıq ruhu ilə yoğrulan bir poeziyadı".

Sabir bəy də yubilyara şeir oxudu, amma məlum səbəbdən biz yenə Musa Yaqubun şeirinə müraciət edirik:

***Nə əvvələm, nə indiyəm,***
***Səksənimin içindəyəm.***
***Axırıncı keçiddəyəm-***
***Keçidimi keçim gedim.***

***O bulaqdan çox içmişəm,***
***Bu çeşmədən keçim gedim.***
***Bir sot biçin yerim qalıb,***
***Bu yeri də biçim gedim.***

Ramiz Rövşən Musa Yaqubu Azərbaycan ədəbiyyatının ən təbii şairi adlandırdı: "Musa həm də poeziyamızda ən buynuzlu, qoç şairidi, lakin heç kimə buynuz göstərmir. Çünki içi sevgi ilə doludur".

***Əlimin abırı, tumarı gedir,***
***Ovcum böyüdükcə borcum böyüyür.***
***Yolumun rahatı, hamarı gedir,***
***Yetim cığırlarda otum böyüyür.***
***Dilləri ağzından çıxır çoxunun,***
***Küçələrdə lotu-potum böyüyür.***
***Allah, qoru məni küçələrimdən,***
***O qanlı-qadalı gecələrimdən.***

Sonra söz yazıçı Seyran Səxavətə verildi. Seyran bəy belə gözəl məclisin səbəbkarına minnətdarlıq etdi: "Heyf ki, 365 günümüzün hamısı bu cür yaddaqalan olmur. Ona görə bu tədbirin iştirakçıları kimi hamımız Musa Yaquba borcluyuq. Musa Allahın onun üçün yazdığı ssenarini kişi kimi oynayır. Məndən əvvəl çıxış edən qələm dostlarımdan fərqli olaraq mən Musa Yaqub barəsində nəinki məqalə, heç bircə informasiya da yazmamışam. Lakin 50 ildən artıqdır ki, birgə məclislərimizdə Musa haqqında maraqlı sağlıqlar demişəm. Həmin tostları toplayıb iki cilddən ibarət kitab çap edəcəm".

***Heç biganəliyə əlac olmadı,***
***Şərikli qoz əkdik yol qırağında.***
***Heç biri böyüyüb ağac olmadı.***

***Boz üzün rəngi var, boz bizə qaldı,***
***Elə cür tozanaq qaldırdılar ki,***
***Qoz çıxdı aradan, toz bizə qaldı.***
***Heyf! Heyf!***

Rəsmi toplantılardan, tribunalardan həmişə uzaq gördüyümüz şair Maarif Soltan dopdolu zalda səhnəyə çıxıb ustadını təbrik elədi. Bu gecədə özünün yox, məhz Musa Yaqubun şeirini oxudu:

***Allahım, bənd olub çaşıb qalmışam,***
***Sən göstər səmtimi, səmt ilə gedim.***
***Bir sevda işığı tutub gözümü,***
***Kömək ol, fəhm ilə, fənd ilə gedim.***
***Mən eşqdən savayı bir yol bilmirəm,***
***Məni bir bəndəyə bənd elə, gedim.***

Görkəmli alim Rafiq Əliyev şair dostunu belə təbrik etdi: "Musa Yaqub dağlardan tökülən şəlalə kimi safdı. Allah insanı tarazlıqda yaradır, birini verəndə birini alır. Musaya balaca boy, böyük ürək verib".

***Haqqın əli uzalı,***
***Durum, tutum, tapışım-***
***Nə çəkdilər üzülüm,***
***Nə qoydular yapışım.***
***Ah, bu Vətən torpağı,***
***Alındı baş qalası-***
***Nə yolunda şəhidəm,***
***Nə qəhrəman balası.***

Yubiley gecəsində Xalq yazıçısı Elçinin Musa Yaquba ünvanladığı təbrik teleqramı oxundu, İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Mirdamət Sadıqovun adından hədiyyə təqdim olundu. Əməkdar artist Ağalar Bayramovun, qiraətçi Zülfiyyə Eldarqızının ifasında şairin şeirləri səsləndi. Əməkdar artist Zöhrə Abdullayeva, Aşıq Əhliman Musa Yaqubun sözlərinə bəstələnən mahnıları ifa etdilər. İsmayıllıdan gələn musiqiçilər məşhur həmyerlilərinə mahnı payı bağışladılar.

Lap sonda sürəkli alqışlar altında mikrafona yaxınlaşan yubilar Yazıçılar Birliyinə, yeni kitablarını çap edən köhnə dostu, millət vəkili Elxan Süleymanova, bütün tədbir iştirakçılarına təşəkkür etdi.

***Qalmayıb dünyanın yaxşı, pisiylə,***
***Gərək o baharla çıxıb gedəydim.***
***Mən gərək Fərmanla, İsa, İsiylə,***
***Aydınla, Eldarla çıxıb gedəydim.***

Nə yaxşı ki, insanın nə zaman çıxıb getməsini Tanrı özü həll edir. Nə yaxşı ki, Musa Yaqub 80 yaşını doğmaları, dostları, oxucuları arasında keçirir. Nə yaxşı ki, hələ bir yubiley məclisi də Buynuzda var!

**Etibar CƏBRAYILOĞLU**